# Tofiq Tağızadə

**Görkəmli rejissor Tofiq Mehdiqulu oğlu Tağızadə 1919-cu ildə Bakı şəhərində müəllim ailəsində anadan olmuşdur. Valideynlərinin məsləhəti ilə o, orta məktəbi bitirəndən sonra energetika texnikumunda, eyni zamanda musiqi məktəbində oxumuş, 1938-ci ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun energetika fakültəsinə daxil olmuşdur.**

1941-ci ildə 3-cü kursda oxuyarkən könüllü olaraq cəbhəyə getmiş, 1942-ci ilin axırlarında yaralanaraq Bakıya qayıtmışdır.

1946-cı ildə T.Tağızadə həyatda ən böyük arzusuna çataraq Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutuna daxil olmuşdur.

1955-ci ildə gənc rejissor özünün ilk böyük filmini - Azərbaycan və Özbəkistan pambıqçılarının ənənəvi dostluğundan bəhs edən "Görüş" filmini çəkmişdir.

Üç il sonra "Uzaq sahillərdə" filmi çəkilmiş və bütün sovet məkanında şöhrət qazanmışdır. Rejissora 1960-cı ildə Azərbaycan Əməkdar İncəsənət Xadimi fəxri adı verilmişdir.

1960-cı ildə "Əsl dost", "Mən rəqs edəcəyəm" filmləri ilə yanaşı, məşhur fransız yazıçısı Prosper Merimenin eyniadlı novellasının motivləri əsasında "Mateo Falkone" qısametrajlı filmini də uğurla ekranlaşdırmışdır.

Sonrakı illərdə kinorejissor Çeçen-İnquş Respublikası mədəniyyətinin inkişafından bəhs edən "Əmək və qızılgül", Ü.Hacıbəyovun eyniadlı musiqili komediyasının motivləri üzrə "Arşın mal alan", S.Vurğunun "Komsomol poeması"nın motivləri üzrə "Yeddi oğul istərəm", yazıçı İsi Məlikzadənin povesti əsasında "Evin kişisi" bədii filmlərini yaratmışdır.

T.Tağızadənin 1972-ci ildə Ə.Qafarovun ssenarisi əsasında çəkdiyi "Qızıl qaz" filmi onu psixoloji film ustası kimi də tanıtmışdır.

"Kitabi-Dədə Qorqud" dastanının motivləri əsasında yazıçı Anarın qələmə aldığı ssenarini T.Tağızadə cəsarətlə kino dilinə çevirmiş və bir rejissor kimi daha da şöhrətlənmişdir.

Kino ustasının 80-90-cı illərdə lentə aldığı "Babamızın babasının babası", "Bağ mövsümü", "O dünyadan salam" və "Köpək" bədii filmləri də Azərbaycan kinosu tarixində özlərinə məxsus yer tutur.

T.Tağızadə həm də 10-a qədər filmdə, o cümlədən "Mateo Falkone", "Onun böyük ürəyi", "Qəribə adam", "Qaladan tapılan mücrü", "Zirzəmi", "Bəxt üzüyü" və s. kinolarda çəkilmişdir.

Böyük sənətkar filmlər çəkməklə yanaşı, respublikanın ictimai-siyasi həyatında da fəal iştirak etmişdir. O, Azərbaycan SSR Ali Sovetinin deputatı olmuş, uzun illər Azərbaycan Kinematoqrafçılar İttifaqının katibi işləmiş, respublikamızda kino işinin təşkilində və milli kino kadrlarının hazırlanmasında gərgin əmək sərf etmişdir. Onun milli kinomuzdakı xidmətləri yüksək qiymətləndirilmişdir. Sənətkar "Oktyabr inqilabı" (1971), "Şərəf nişanı" (1959), "Şöhrət" (1998) ordenləri, "Qafqazın müdafiəsi uğrunda" (1946), "Böyük Vətən müharibəsindəki rəşadətli əməyə görə" (1946) medalları ilə təltif edilmişdir. Azərbaycan Respublikasının Xalq artisti, kinorejissor Tofiq Tağızadə 1998-ci il avqustun 27-də 79 yaşında vəfat etmişdir.

● **Səmayə QULİYEVA**